*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 4 mart 2017-ci il № 17 (2134) Qiyməti 25 qəpik


## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# Təhlükəsizliyin və sabitliyin təmin edilməsi regional əməkdaşlığın qurulmasının mühüm elementidir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Pakistan İslam Respublikasına səfər edib.

AZƏRTAC-ın verdiyi məlumata əsasən, İslamabadın Benazir Bhutto beynəlxalq aeroportunda Azərbaycanın dövlət başçısı Pakistanın yüksək səviyyəli rəsmi şəxsləri tərəfindən böyük qonaqpərvərliklə qarşılanıb, Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülüb, toplardan yaylım atəşi açılıb.

Ölkəmizin rəhbəri Pakistan İslam Respublikasının Prezidenti Məmnun Hüseyn və bu dövlətin Baş naziri Məhəmməd Nəvaz Şərif ilə görüşlər keçirib, ölkələrimiz arasında dostluq və qardaşlıq əlaqələrinin yüksək səviyyədə olduğu bildirilib. Azərbaycan ilə Pakistan arasında siyasi əlaqələr müzakirə edilib, beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstəyin əhəmiyyəti, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və Kəşmir problemi ilə bağlı ölkələrimizin qətiyyətli mövqe nümayiş etdirdiyi bir daha vurğulanıb.

Həmçinin İslamabadda Prezident İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşüb. Görüşdə ölkələrimiz arasında dostluq və qardaşlıq əlaqələrinin dinamik inkişafından məmnunluq ifadə olunub.

Martın 1-də İslamabadda İqtisadi Əməkdaşlıq Təşkilatının XIII Sammiti keçirilib. İqtisadi Əməkdaşlıq Təşkilatının XII Zirvə görüşünə ev sahibliyi etmiş və təşkilata sədrliyi həyata keçirən Prezident İlham Əliyev Sammiti açıq elan edib. Dövlətimizin başçısı Zirvə görüşündə çıxış edib.

İqtisadi Əməkdaşlıq Təşkilatını yalnız Şərq və Qərb, Şimal və Cənub arasında fiziki körpü deyil, müxtəlif sivilizasiyaları və mədəniyyətləri birləşdirən məkan kimi təsviq etməkdə rəsmi Bakının səylərini əsirgəmədiyini bildirən Prezident İlham Əliyev qeyd etdi ki, təşkilatımızın inkişafına və regional əməkdaşlığın dərinləşdirilməsinə Azərbaycan böyük töhfə verib.

İqtisadi Əməkdaşlıq Təşkilatının baş katibi Xəlil İbrahim Akça da 2012-ci ildən bəri quruma yüksək səviyyədə sədrlik etdiyinə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib. O, bu Sammitin ölkələrimiz arasında əməkdaşlığın genişləndirilməsi üçün mühüm fürsət olduğunu vurğulayıb. Ticarət, nəqliyyat, enerji, turizm, ərzaq təhlükəsizliyinin təmin olunması və digər sahələrdə əməkdaşlığın gücləndirilməsinin təşkilatın gündəliyində yenə də vacib yerdə dayandığını deyən baş katib BMT-də müşahidəçi statusuna malik olan İqtisadi Əməkdaşlıq Təşkilatının bu Zirvə görüşünün nəzərdə tutulan layihələrin həyata keçirilməsinə mühüm töhfə verəcəyinə əminliyini bildirib.

Daha sonra qardaşlıq və həmrəyliyin göstəricisi kimi Pakistanın ərazimizin 20 faizini işğal etməkdə davam edən Ermənistan dövləti ilə diplomatik münasibətlər qurmadığına görə Azərbaycan xalqının minnətdarlığını bildirən Prezident İlham Əliyev çıxış edərək dedi:

- Təhlükəsizliyin və sabitliyin təmin edilməsi regional əməkdaşlığın qurulmasının mühüm elementidir. Təəssüf ki, yeni münaqişələr yarandıqca regionumuzda təhlükəsizlik və sabitlik daha da kövrək olur. Biz insan faciəsinin şahidi oluruq. Çoxlu sayda insanlar həyatlarını itirir, milyonlarla insan doğma yurdlarını tərk edir.

Azərbaycan öz təcrübəsindən bu ağrı və acıları yaxşı anlayır. Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan ərazisinin 20 faizi - tarixi torpağımız olan Dağlıq Qarabağ və ətraf yeddi rayonumuz işğal altındadır. Bu ərazilərdə etnik təmizləmə aparılmış və bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Ermənistan tərəfindən işğal olunmuş ərazilərdə bütün tarixi abidələrimiz, məscidlərimiz və qəbiristanlıqlarımız dağıdılmışdır. Ermənistan 1992-ci ildə Azərbaycana qarşı soyqırımı törətmişdir. Xocalı soyqırımı nəticəsində qətlə yetirilən 613 mülki şəxsdən 106-sı qadın, 63-ü uşaq, 70-i isə qoca olmuşdur. Min nəfərdən çox insan itkin düşmüşdür. Bu gün 10-dan artıq ölkə Xocalı soyqırımını tanımışdır. 2012-ci ildə Pakistan Senatının Xocalı soyqırımını rəsmən tanıdığına görə biz Pakistana təşəkkürümüzü bildiririk.

BMT Təhlükəsizlik Şurası münaqişə ilə bağlı dörd qətnamə qəbul etmişdir. Həmin qətnamələrdə Ermənistan silahlı qüvvələrinin işğal edilmiş torpaqlardan qeyd-şərtsiz və dərhal çıxarılması tələb olunur. İslam Əməkdaşlıq Təşkilatı, ATƏT, Avropa Parlamenti, Avropa Şurası Parlament Assambleyası, Qoşulmama Hərəkatı və digər mötəbər beynəlxalq təşkilatlar bənzər qətnamə və qərarlar qəbul etmişlər. İslam Əməkdaşlıq Təşkilatının sonuncu Zirvə görüşündə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və son olaraq, 2016-cı ilin aprelində Ermənistan tərəfindən Azərbaycana qarşı edilmiş təcavüzlə bağlı nazirlər səviyyəsində kontakt qrupu yaradılmışdır. Ermənistan bu qətnamələrə əməl etməli və ya sanksiyalara məruz qalmalıdır. Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir.

Həmçinin müsəlman ölkələri arasında həmrəyliyə Azərbaycanın xüsusi əhəmiyyət verdiyini vurğulayan dövlətimizin başçısı bildirdi ki, Azərbaycan 2017-ci ili "İslam Həmrəyliyi İli" elan etmişdir və iki aydan sonra Bakı IV İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi edəcək. "Bu gün islamofobiya dünyada ən ciddi təhlükələrdən biridir. Biz bu tendensiyanı qəti şəkildə pisləyirik. İslamı terrorla əlaqələndirmək yanlış və qərəzli yanaşmadır. Terrordan ən çox əziyyət çəkən məhz müsəlman dövlətləridir. Biz sülh, mərhəmət, dözümlülük və ədalət dini olan İslamın dəyərlərinin təşviqini davam etdirməliyik".

Sammitdə digər çıxış edənlər İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin qarşıda duran məsələlərin həlli üçün səylərini bundan sonra daha da gücləndirmələrinin, iqtisadi əlaqələri möhkəmləndirməyin, qarşılıqlı investisiya yatırımlarının artırılmasının və səmərəli təkliflərin nəzərə alınmasının vacibliyini vurğulayıblar, Pakistana bu təşkilata sədrliyi dövründə uğurlar arzulayıblar.

Tədbirin sonunda İslamabad Bəyannaməsi qəbul edilib.

**"Azərbaycan Ordusu"**

# Xarici ölkələrin hərbi attaşeləri Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində olublar



*Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi illik fəaliyyət planına əsasən, xarici dövlətlərin ölkəmizdə akkreditə olunan hərbi attaşeləri martın 2-də Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində olublar.*

On dörd dövləti təmsil edən hərbi attaşelik aparatının on yeddi nümayəndəsi tədris prosesi ilə tanış olub, məktəb haqqında brifinq dinləyib və onları maraqlandıran suallar cavablandırılıb.

Hərbi attaşelər ziyarətin yüksək səviyyədə təşkilinə görə Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# ATƏT-in monitorinq qrupunun üzvləri Ağdamın cəbhəboyu yaşayış məntəqələrindəki vəziyyət barədə məlumatlandırılıb

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Jiri Aberle və Piter Şvedberq martın 1-də Ağdam rayonunda olublar.

AZƏRTAC xəbər verir ki, Ağdam rayon İcra Hakimiyyətində keçirilən görüşdə Ermənistan qoşunlarının yaşayış məntəqələrimizi atəşə tutması nəticəsində yaranan problemlər və cəbhə xəttində yaşayan dinc əhalinin üzləşdiyi çətinliklər barədə məlumat verilib.

Ağdam rayon İcra Hakimiyyətinin başçısı Raqub Məmmədov bildirib ki, Ermənistan silahlı birləşmələri rayonun təmas xəttinə yaxın olan yaşayış məntəqələrini daim atəş altında saxlamaqla, dinc əhalinin təsərrüfat işləri ilə məşğul olmasına maneçilik törətməyə cəhd göstərirlər.

Qeyd olunub ki, düşmənin yaşayış məntəqələrimizi mütəmadi atəşə tutması səbəbindən yaranan çətinliklərə baxmayaraq, rayonda həyat öz axarı ilə davam edir. Sakinlər gündəlik məişət qayğıları və təsərrüfat işləri ilə məşğul olurlar.

Monitorinq qrupunun üzvləri səmimi qəbul və ətraflı məlumat üçün minnətdarlıqlarını bildiriblər.

# Cəbhənin Ağdam istiqamətində Ermənistana məxsus taktiki PUA məhv edilib

Martın 2-si günorta saatlarında cəbhənin Ağdam istiqamətində Silahlı Qüvvələrimizin mövqeləri üzərində uçuşlar həyata keçirməyə cəhd göstərən Ermənistan silahlı qüvvələrinə məxsus "X-55" taktiki pilotsuz uçuş aparatı (PUA) Hərbi Hava Qüvvələrinin Hava Hücumundan Müdafiə bölmələri tərəfindən vaxtında aşkar olunaraq atəşlə məhv edilib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**



# İstefada olan polkovnik Adil Əliyev uzun sürən xəstəlikdən sonra vəfat edib

*Müdafiə Nazirliyinin Tikinti Baş İdarəsinin keçmiş rəisi, "Əməkdar İnşaatçı" istefada olan polkovnik Əliyev Adil Ömər oğlu 2017-ci il fevralın 28-də ömrünün 74-cü ilində uzun sürən xəstəlikdən sonra vəfat edib.*



Polkovnik A.Əliyev 1943-cü il dekabrın 13-də Ermənistanın Kalinino rayonunun Qızıl Şəfəq kəndində anadan olub. Orta məktəbi bitirdikdən sonra 1962-ci ilədək "Qızıl Şəfəq" sovxozunda fəhlə işləyib. 1963-cü ildə Sovet ordusu sıralarında həqiqi hərbi xidməti başa vurduqdan sonra ona "kiçik leytenant" hərbi rütbəsi verilib.

1967-ci il sentyabrın 15-də Estoniyanın Yaqala şəhərində siyasi kurslara göndərilib və oranı 1968-ci ildə bitirdikdən sonra ona "leytenant" hərbi rütbəsi verilərək Yakutiya Muxtar Sovet Sosialist Respublikasının Tiksi-3 şəhərində bölük komandirinin siyasi işlər üzrə müavini, daha sonra bölük komandiri vəzifəsində xidmətə göndərilib.

1974-cü ilin fevralında polkovnik A.Əliyev Ukraynanın Çerniqov şəhərində bölük komandiri, 1976-cı ilin noyabrında isə həmin qarnizonda hərbi hissə komandiri vəsifəsində xidmət edib. Həmin il hərbi hissə Azərbaycan Respublikasının Qəbələ şəhərinə köçürülüb və bir müddət xidmət etdikdən sonra o, 1983-cü ildə Leninqrad şəhərində akademik kurslara qəbul olunub.

Polkovnik A.Əliyev 1983-cü ildən inşaat idarəsi rəisinin müavini vəzifəsində, 1992-ci ilin yanvarından 2005-ci ildə ehtiyata buraxılanadək isə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Baş Tikinti İdarəsinin rəisi vəzifəsində xidmət edib.

Xidməti dövründə polkovnik A.Əliyev bir sıra medallarla təltif edilib. 1988-ci ilin avqustunda Qəbələ RLS-nin layihələşdirilməsi və tikintisi sahəsində əldə etdiyi nailiyyətlərə görə ona SSRİ Nazirlər Sovetinin mükafatı verilib.

1989-cu ilin mayında ona Azərbaycan Ali Sovetinin qərarı ilə "əməkdar inşaatçı" fəxri adı verilib.

Polkovnik A.Əliyevin xatirəsi zabit və xeyirxah insan kimi onu tanıyanların qəlbində həmişə yaşayacaqdır.

Müdafiə Nazirliyinin rəhbərliyi mərhumun yaxınlarına, əzizlərinə dərin hüznlə başsağlığı verir və səbr diləyir.

Allah rəhmət eləsin.

# Düşmən təxribatı nəticəsində yaralanan hərbi qulluqçumuz şəhid olub

***28 fevral 2017-ci il.***

Ermənistan silahlı qüvvələrinin təxribatı nəticəsində düşmənlə döyüş toqquşmasında yaralanan əsgər Əhmədov Elvin Süleyman oğlu hərbi tibb müəssisəsinə çatdırılsa da, bütün təxirəsalınmaz tədbirlərin görülməsinə və həkimlərin səyinə baxmayaraq aldığı həyatla uzlaşmayan yara səbəbindən şəhid olub.

Müdafiə Nazirliyinin rəhbərliyi şəhidin yaxınlarına, əzizlərinə dərin hüznlə başsağlığı verir və səbr diləyir.

# "Ermənistan beynəlxalq qurumlara növbəti dəfə böhtan ataraq şantaj etməklə məşğuldur"

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, martın 1-də Ağdam rayonunun Çəmənli kəndi istiqamətində yerləşən Azərbaycan və Ermənistan qoşunlarının qarşıdurma xəttində keçirilən monitorinqin insidentsiz başa çatması beynəlxalq missiya tərəfindən təsdiqini tapıb.

Bunu Ermənistan mətbuatının guya Azərbaycan tərəfinin monitorinq zamanı ATƏT-in missiyasını ön mövqelərə çıxarmaması barədə xəbərlə bağlı AZƏRTAC-ın sorğusuna cavab olaraq Müdafiə Nazirliyinin Mətbuat Xidmətindən bildiriblər.

Nazirlikdən deyiblər ki, Ermənistan tərəfi də monitorinqin müəyyən edilmiş qrafikə uyğun keçirilməsi və atəşkəs rejiminin pozulmaması barədə xəbər yaysa da, Azərbaycan tərəfinin guya ATƏT-in missiyasını təmas xəttinə çıxarmadığını bildirib.

Bir daha bildiririk ki, monitoringin keçirilməsi mexanizminə uyğun olaraq, beynəlxalq müşahidəçilər əvvəl rabitə, sonra isə vizual əlaqə yaradaraq nə vaxt, hansı nöqtədə olmalarını, eləcə də digər detalları özləri müəyyən edir və monitorinqin bitməsini orada iştirak edən səhra köməkçiləri özləri təsdiq edirlər.

Erməni tərəfi mütəmadi olaraq buna bənzər böhtan xarakterli yalan məlumatlar yaymaqla beynəlxalq qurumları şantaj etmək, onların fəaliyyətinə kölgə salmaq və etimadına xələl gətirmək məqsədini güdür.

# "Qərəzli yanaşmalar düşmən üzərində qələbə naminə görülən işlərə kölgə salır"

Hər dəfə cəbhə xəttində vəziyyətin gərginləşdiyi hallarda bəzi elektron media resurslarında və sosial şəbəkələrdə şəhidlərimiz, onların ailə üzvləri, ön xətdə xidmət edən hərbi qulluqçular və ümumiyyətlə, cəbhəboyu zonadakı vəziyyətlə bağlı qərəzli, xoşagəlməz yazıların dərc edilməsi və şərhlərin paylaşılması müşahidə edilir.

Bu fikir Müdafiə Nazirliyinin AZƏRTAC-a daxil olan məlumatında qeyd edilib.

Məlumatda diqqətə çatdırılıb ki, Silahlı Qüvvələrimizin əsgərindən tutmuş generalınadək hər bir şəxs ön xətdə, əmrlə ona tapşırılmış istiqamətdə, səngərlərdə, mövqelərdədir və bu məsələdə heç bir ayrı-seçkiliyə yol verilmir. Orduda, xüsusilə də cəbhədə xidmət edən hərbi qulluqçuların yerdəyişməsi rotasiya qaydasında, mütəmadi olaraq, planlı və növbəli şəkildə həyata keçirilir.

"Şəhidlərin ailə üzvlərinin hisslərinə və ön xətdə xidmət edən hərbi qulluqçuların mənafeyinə toxunan belə qərəzli yanaşmalar düşmən üzərində qələbəmiz naminə görülən işlərə kölgə salır və ümumi məqsədimizə xələl gətirməklə yanaşı, erməni təbliğatının maraqlarına xidmət etmiş olur", - deyə nazirliyin Mətbuat Xidmətinin məlumatında vurğulanıb.

# Monitorinq insidentsiz başa çatıb

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, martın 1-də Ağdam rayonunun Çəmənli kəndi istiqamətində yerləşən Azərbaycan və Ermənistan qoşunlarının qarşıdurma xəttində növbəti monitorinqi keçirilib.

Monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Jiri Aberle və Piter Şvedberq keçiriblər.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində monitorinqi şəxsi nümayəndə səfir Anjey Kasprşik və onun səhra köməkçiləri Gennadi Petrika və Xristo Xristov keçiriblər.

Ön xətdən reportaj

# Mübariz olmaq istəyən əsgərlərimiz

*Bu dəfəki reportajımızı Mübarizdən, onun timsalında mübarizlərdən hazırlayacağıq. Bu məqsədlə cəbhə bölgəsinə yola düşürük. Yolboyu həzin musiqi dinləyir, maraqlı söhbətlər edir, döyüş yolu keçmiş hərbi müxbirimiz Bəxtiyar Əliyevin xatirələrinə qulaq asırıq. Həmsöhbətimizin danışdıqları bir kino lenti kimi gözümüzdə canlanır, ermənilərin tarix boyu öz fitnələrindən əl çəkmədiklərinin bir daha şahidi oluruq.*



Haqq yolundan dönməyən, Vətən torpağına qəsd edənin üzərinə qorxmadan gedən Milli Qəhrəmanımız Mübariz İbrahimovu, onun doğulduğu Biləsuvar rayonunun Əliabad kəndini xatırlayıram. Hansı ki, bu kəndi bütün Türk dünyası "Mübarizin kəndi" kimi tanıyır. Qəhrəmanın göz açdığı ocağa ayaq basanda elə həyəcanlıydım ki. Sanki Mübarizlə görüşəcək, onu tanıyacaqdım. Onun dünyadan köçdüyünü, şəhid olduğunu bilə-bilə bu düşüncəni başımdan ata bilmirdim. Kəndə gələndə tək bir arzum vardı: onun keçdiyi küçələrdən keçim, su içdiyi bulaqdan su içim, daldalandığı ağacın kölgəsində sərinlik tapım. Elə də olmuşdu. Ailəsi, müəllimləri, dostları ilə söhbət edib onun bütün varlığının Vətən olduğunu anlamışdım...

Budur, düşüncələr, xatirələr yoldaşlığında Mübarizin Vətənə keşik çəkdiyi döyüş postuna qalxırıq. Rahatlıqla irəlilədiyimiz geniş yollar mühəndis-istehkamçılarımızın uğurudu deyə düşünürəm. Bu görülən işlərin hesabına düşməndən üstünlüyümüz şübhəsizdir.

Nəhayət, döyüş postuna daxil oluruq. Postu bu başından o başına kimi Mübarizin şəkilləri bəzəyir. Dəqiqələrcə şəkillərə baxıram, ağlımdan keçəni dilimdə səsləndirirəm: "Sənə bənzəmək istəyirəm, Mübariz... Sənə bənzəmək... Sənə..." Bu sözləri təkrarladıqca bir daha xəyalım məni Mübarizin ocağına qaytarır. Axı bu hisslər tanışdı, daha əvvəl burada olmuşam? Yox, ilk dəfədir buradayam, düşünürəm. Qəhrəmanın oxuduğu məktəb də onun şəkilləri ilə bəzənmişdi, o şəkillərə də dəqiqələrcə baxmışdım. Onda da "Sənə bənzəmək istəyirəm, Mübariz" demişdim. Bir anda düşünürəm ki, yəqin hər kəs bu şəkillərə baxanda, Mübarizin dillərə dastan olan qəhrəmanlığı haqqında eşidəndə, ona bənzəmək istəyir. Əlbəttə, belədir.

Yanımda dayanan əsgər Valeh Həsənovdan, qəhrəmanın şəkillərinə baxanda nə düşündüyünü soruşuram. Başını dik qaldırıb. "Mübariz olmaq istəyirəm", - deyir.

Əsgərlə söhbətimizə zabit Elman Həsənov qoşulur. Elmanın şəxsi heyətin mənəvi-psixoloji vəziyyətinə cavabdeh zabitlərdən olduğunu öyrənirəm. Postdakı bütün əsgərlərin yüksək döyüş ruhuna malik olduğunu deyir.

"Hər bir əsgərə döyüşə hər cəhətdən hazır olmağı öyrədirik. Daimi olaraq Azərbaycanın tarixi və müasir qəhrəmanlarından danışır, əsgərlərə döyüş ruhu aşılayırıq. Hər bir əsgər Milli Qəhrəman Mübariz İbrahimovun xidmət etdiyi və onun adını daşıyan döyüş postunda xidmət etməkdən qürur duyur".

Döyüş növbəsində dayanan əsgərlərlə söhbət etmək üçün səngərə daxil oluram. Hansı ki, bu səngərlərlə qəhrəmanlar, qorxmazlar, mübarizlər irəliləyir, düşməni məhv etmək üçün Ali Baş Komandanın əmrini gözləyirlər. İlk olaraq atıcı əsgər Məhəmməd İsmayılovla görüşürəm. İmişli rayonundan hərbi xidmətə çağırılan əsgər düşmən mövqelərini daim müşahidə etdiklərini, növbə zamanı ayıq-sayıq dayandıqlarını deyir.

- Bir anlıq diqqətsizlik düşmənin təxribat törətməsinə səbəb ola bilər. Hər birimiz üzərimizə düşən məsuliyyətin fərqindəyik, - deyir Məhəmməd.

Döyüş postlarında səliqə-sahmanın, təmizliyin də şahidi oluruq. Taqım komandiri leytenant Ayaz Cəfərli deyir ki, səngərə girdiyim anda əvvəlcə yerlərə baxıram. "Hər kəs layiq olduğu şəraitdə yaşar. Amma mən belə bir vəziyyətdə yaşamağa, işləməyə layiq deyiləm!" deyib ilk zibili özüm yerdən götürürəm. Ondan sonra əsgərlər də nə demək istədiyimi anlayır, səliqə-sahmana ciddi riayət edirlər.

Növbəti mövqeyə çatanda müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Fariz Əsgərovun döyüş növbətçiliyini dəyişdiyinin şahidi oluruq. Manqa komandiri əsgərlərə tapşırıqlarını verərək, ayıq-sayıq olmağı tapşırır, düşmənin hərəkətini müşahidə edərlərsə, dərhal məlumat verməyi qətiyyətlə bildirirdi.

Sərt baxışlı bir döyüşçüyə yaxınlaşıb həmsöhbət oluruq. Fariz Əsgərov müddətli həqiqi hərbi xidmətini 2015-ci ildə başa vurub. Ordu sıralarına yenidən qatılmağı Vətəninə övlad borcu bilib. Manqa komandiri cəbhə bölgəsinə yaxın ərazidə dünyaya göz açdığı üçün daim atəş səsləri eşitdiyini, mənfur düşmənin torpaqlarımızı işğal etdiyini, uşaq, qadın, yaşlı bilmədən dinc əhaliyə divan tutduğunu deyir. “Qəlbimdəki nifrət, ruhumu sızladırdı. Bura gələndən sonra ruhum dincəlib. Bilirəm ki, Vətənin keşiyindəyəm, düşmən qarşısında qorxmaz əsgərlərimiz kimi, mən də varam, Ayaz var, Sahib var. Hər bir əsgərimiz düşmənə göz dağıdır, bir-birimizlə çiyin-çiyinə verdikdə isə gücümüz daha da artır.”

Xüsusi qurğu ilə müşahidə aparan əsgər Təbriz Camalova yaxınlaşıb nə gördüyünü soruşuruq. Gözlərini düşmən mövqelərindən ayırmadan hazırda heç nə müşahidə olunmadığını, düşmənin hərəkətsiz olduğunu bildirir. Amma bəzən hərbi avtomobilləri, düşmən əsgərlərini müşahidə etdiyini və dərhal məlumat verdiyini bildirir.

- Azərbaycan qəhrəmanlar diyarıdı, mən də bu diyarın mərd oğullarındanam, - deyir əsgər. - Gözümü qırpmadan, ölümdən qorxmadan düşmən qarşısında Vətənin keşiyindəyəm. Ali Baş Komandanımız İlham Əliyev döyüş əmri verdiyi an Mübarizin keçdiyi çığırlardan keçəcək, aşdığı təpələrdən aşacaq və tarixi torpaqlarımızı düşməndən azad edəcəyik. Düşmən anaları bilsinlər ki, Azərbaycan xalqı humanist, sülhsevər xalqdır. Biz onların balalarını öldürmək, onları gözüyaşlı qoymaq istəmirik. Ancaq səriştəsiz erməni rəhbərlərinin ucbatından onların övladları öləcək. Demək istəyirəm ki, ey erməni anası, çək övladını qarşımdan. Oğlunun ayaq basdığı torpaq mənimdi, torpağıma yad ayağı dəyərkən mən burada rahat ola bilmirəm.

Cəsur əsgərimizin dediklərindən həm qürur hissi keçirir, həm də hiddətlənirəm. Hər qarışına qəhrəmanların, qorxmazların, cəsurların ayaq basdığı, torpağımızdan hərarət hiss etdiyimiz səngərlə növbəti mövqeyə yollanırıq. Gənc zabit Ayaz Cəfərli qəhrəmanların nəfəsiylə isinən döyüş postunun hər bir əsgər, zabit üçün müqəddəs qala olduğundan, bu qalanın keçilməzliyindən fərəhlə danışır, əsl döyüşçü nəslinin formalaşdığını deyir. Amil Qasımov 14 aydır ki, hərbi xidmətdədir. Bakının Qaradağ rayonundan hərbi xidmətə çağırılan əsgər şəxsi heyət arasında həm döyüş bacarığına, həm nizam-intizamına, həm də səmimiliyinə görə xüsusi hörmətə malikdir. Təcrübəli əsgər olduğu üçün özündən sonra gələnlərə döyüş vərdişlərini öyrətməyə səy göstərir. Bir sözlə, komandirlərinə yardımçı olur.

Az sonra taqım komandirinin haqqında danışdığı tuşlayıcı əsgərin keşik çəkdiyi mövqeyə daxil oluruq. Əsgər Amil Qasımov deyir ki, bu mövqeləri düşmənin artilleriyası dağıda bilməz. "Ön xətdə xidmət etməkdən qürur duyuram. Azərbaycan xalqı bizə güvənir, əmindir ki, ön xətdə düşməni vahiməyə salan qorxmaz əsgərlər var. Yazın ki, ata-anam məndən nigaran qalmasın, qayğıkeş komandirlərimiz, təcrübəli zabit və əsgərlərimiz var. Heç zaman unutmaram. Atam məni yola salanda əlini çiynimə qoyub "Artıq Vətənin övladısan" dedi. Komandirlərimin sözünə qulaq asmağımı, Vətən uğrunda öldürməyi, lazım gələrsə canımı, qanımı əsirgəməməyimi tapşırdı. İndi isə atama demək istəyirəm ki, sənin övladın bu gün xalq, millət, torpaq keşiyində qorxmadan dayanıb. Ürəyiniz rahat olsun, atam, anam... Ürəyin rahat olsun, Vətən..."

Növbəti həmsöhbətim isə əsgər Sahib Əlibalalıdır. Döyüş növbətçiliyindən yenicə qayıdıb, istirahət etməyə hazırlaşırdı. Şəxsi heyətin mənəvi-psixoloji vəziyyətinə cavabdeh zabitlərdən Elman Həsənov təcrübəli əsgər haqqında xoş sözlər dedi, uğurlu xidmətindən söz açdı.

- Sahib döyüş bacarığı ilə seçilən əsgərlərimizdəndir. Dəfələrlə şəxsi heyət qarşısında ona təşəkkür elan olunub, - zabit dedi.

- Xidmətimin ilk günündən nizam-intizamlı olmağa, komandirlərimin tapşırıqlarını vaxtında və düzgün yerinə yetirməyə çalışıram, - Sahib deyir. - Əgər haqqımda xoş sözlər deyilirsə, özümü qürurlu sanıram.

Əsgərlərimizlə qürurverici söhbətlərdən sonra xoş ovqatla onların yataqxanalarına baş çəkirəm. Kənarda bir çarpayının səliqəli görkəmi, qatının açılmaması, divardakı üçrəngli Azərbaycan bayrağı, hərbi mundir diqqətimi çəkir. Əsgər Nürəddin Lələşov Milli Qəhrəmanımız Mübariz İbrahimovun yatağının, hərbi formasının onlar üçün əbədi xatirə olduğunu dedi. "Gördüyünüz kimi, hərbi formanın üzərində "Səndən qalan xatirə" yazılıb. Bu xatirə hər birimizin qürur və inanc yerimizdir. Döyüş postunda xidmət edən hər bir əsgər qəhrəmanın əziz xatirəsini daim uca tutur, burada hər birimiz nümunəvi əsgər olmaqla qəhrəmana ehtiram hissimizi ifadə edirik."





Əlində silah, ürəyində Vətən eşqi olan mərd oğullarımızla vidalaşıb geri qayıdırıq. Yenə də düşüncələr məni ağuşuna alır. "Mübarizin kəndi", "Mübarizin postu", "Mübarizləşən döyüşçülərimiz"... Düşünürəm, bir qəhrəman minlərlə insana nümunə, örnəkdir. Əminəm ki, Vətən keşiyində dayanan oğullar sırasında minlərlə Mübariz olmaq istəyən əsgərlərimiz var...

**Baş leytenant**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**Coşqun CƏFƏROVUNDUR**



*Təlim*

# “Mətin döyüşçü olacağıq”

Gəncə şəhərində yaşayan İsrafil Hüseynov Böyük Vətən müharibəsi veteranıdır. Qafqazdan Berlinədək şanlı döyüş yolu keçib. Bir sıra xalqların alman faşizmindən xilas edilməsində iştirak edib. Döyüşlərdə göstərdiyi şücaətlərə görə müxtəlif orden və medallara layiq görülüb. Bu gün də veteran fəaliyyətindən qalmır. Hərbi hissələrdə, məktəblərdə keçirilən mədəni-kütləvi tədbirlərdə iştirak edir, əsgərlərin döyüş yolundan, azərbaycanlıların Böyük Vətən müharibəsində misilsiz rəşadətlərindən söhbət açır. Veteranla bu dəfəki görüşümüz isə "N" hərbi hissəsində oldu. Növbəti dəfə əsgərlərlə görüşə gələn veteran ordumuzun qüdrətli inkişafından qürurla danışdı:

- Gördüyünüz bu hərbi hissədə bir neçə dəfə olmuşam. Yaradılan nizam-intizam, hərbi qulluqçulara göstərilən dövlət qayğısı hər bir kəsdə qürur hissi yaradır. Qısa müddətdə güclü, qüdrətli Silahlı Qüvvələrimizin formalaşması ümummilli liderimiz Heydər Əliyevin başladığı ordu quruculuğu işinin Respublika Prezidenti, Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirilməsini təsdiqləyir. Ötən ilin aprel zəfəri göstərdi ki, Azərbaycan əsgəri işğal altında olan torpaqlarımızı tezliklə düşməndən azad edəcəkdir.

Veteranın söhbətləşdiyi əsgərlər yaxın vaxtlarda hərbi andı qəbul ediblər. Müqəddəs bayrağımıza əl basaraq Vətənin müsəlləh əsgərləri kimi xidmət edəcəklərinə and içiblər.

Mayor İftixar Mehdiyev bildirdi ki, gənc əsgərlər təyin edilmiş müddətdə hazırlıq keçir, ordu həyatına alışırlar. "Onlara Müdafiə Nazirliyi tərəfindən təsdiq olunmuş plana əsasən, ictimai-siyasi, atəş və taktiki hazırlıq dərsləri keçirilir. Bununla yanaşı, hərbi qulluqçuların hüquq və vəzifələri, nizamnamələr, müxtəlif atıcı silahlardan istifadə qaydaları öyrədilir. Çalışırıq ki, təlim müddətində onlar hərb sənətinə mükəmməl yiyələnməklə etibarlı Vətən müdafiəçiləri kimi formalaşsınlar".

Gənc əsgərlərin hərbin sirlərinə alışdırılmasında kapitan Rəşad İmamquliyevin də xidmətləri az deyil. Zabit peşəsinin Vətən, xalq üçün gərəkli olduğunu xatırladan Rəşad İmamquliyev bildirir ki, gənc əsgərlərə öncə vətənpərvərlik dərsləri keçirilir. "Onlara hərbi hissəmizin yaradılması və döyüş yolu, Milli Qəhrəmanlarımız haqqında məlumatlar verilir. Azərbaycan dövlətinin inkişafı, beynəlxalq aləmdə artan nüfuzu haqqında da məşğələlər təşkil olunur. İctimai siyasi hazırlıq dərsləri əsgərlərin vətənpərvərlik ruhunun, döyüş əzminin yüksəldilməsinə xidmət edir".




Gənc əsgərlərlə söhbətləşən zaman Vətənə şərəflə xidmət edəcəklərini ifadə etdilər. Sərxan Adıgözəlli Yevlax rayonunun yetirməsidir. Ukraynada ali təhsilini başa vurduqdan sonra hərbi xidmətə gəlib. Ordu sıralarında xidmətdən qürur duyduğunu deyən Sərxan bildirir ki, uzaq diyarda təhsil alsa da, orduda xidmət etmək arzusu onu heç vaxt tərk etməyib. "Bir müddətdir ki, Azərbaycan əsgəri adını daşıyıram. Hərbi andiçmə mərasimində qürurlu anlar yaşadım. Bizə Vətənimizin müdafiəsi etibar olunub. Fəxr edirəm ki, Vətənimizin mərd, mübariz oğulları sırasındayam və ən böyük istəyimiz qələbə ilinin əsgərləri olmaqdır".

Şahsuvar Aslanov da ali təhsillidir. BDU-nun yetirməsi olan əsgər hərbi xidmətə Bakının Yasamal rayonundan çağırılıb. Qısa müddətdə bacarıqlı, intizamlı əsgər kimi tanınıb, hərbi biliklərə həvəslə yiyələnir. O deyir:

- Təcrübəli zabitlərimiz, əsgərlərimiz var. Onlar hərb sənətini bizə hərtərəfli öyrətməyə çalışırlar. Müxtəlif silahlar, nizamnamələr, hərbi qayda-qanunlar haqqında xeyli biliklər əldə etmişik. Çalışacağıq ki, xalqımızın qəhrəman oğullarının layiqli davamçıları olaq, bizə göstərilən etimadı doğruldaq.

Astara rayonundan olan Nizami Abdullayev isə qeyd edir ki, ailədə 4 qardaşdırlar. "Qardaşlarımdan Xəqani, Vidadi, Nəsimi Vətən qarşısında müqəddəs borclarını şərəflə yerinə yetiriblər. Ailələrimizə hərbi hissələrdən təşəkkür məktubları da gəlmişdi. Onun sözlərinə görə, Vətən qarşısında əsgəri borcu yerinə yetirmək hər birimizin müqəddəs vəzifəsidir. "Bu gün mən də fəxr edirəm ki, Vətən keşikçiləri sırasındayam. Mənə etibar olunan silahı mükəmməl öyrənməklə torpaqlarımızın işğalçılardan azad edilməsində iştirak etmək əsas məqsədimdir".

Gənc əsgərlər Fətəli Hacıyev, Orxan Əliyev, Mirfərid Məmmədli, Nurlan Əlizadə və başqaları da silahdaşları ilə həmfikir olduqlarını bildirdilər.

**Mübariz MUSAYEV,**
**"Azərbaycan Ordusu"**

## Müdafiə Nazirliyi düşmənin itkilərini gizlətməsinin səbəblərinə aydınlıq gətirib

"Qoşunlarımız sərəncamında olan istənilən ən müasir silahlardan bütün cəbhəboyu istifadə etmək hüququna malikdir və düşmənin fəaliyyətinin qarşısını almaq imkanındadır".

Bu barədə APA-ya Müdafiə Nazirliyinin Mətbuat Xidmətindən Xocavənd istiqamətində qoşunlarımız tərəfindən Ermənistan silahlı qüvvələrinə qarşı SPIKE tipli tank əleyhinə idarə olunan raketin tətbiq edilməsi barədə erməni mətbuatının yaydığı məlumatla bağlı bildirilib.

"Fevralın 28-də Ermənistan silahlı qüvvələrinin bölmələri öz mövqelərini möhkəmləndirmək məqsədilə zirehli texnikanı ön xəttə çıxarmağa cəhd göstərib. Düşmənin manevr edən zirehli texnikası müvafiq bölmələrimiz tərəfindən vaxtında aşkar edilərək dərhal məhv edilib.

Son günlər düşmənin verdiyi onlarla itkilər arasında xaricdən gətirilən erməni əsilli muzdlular çoxluq təşkil etdiyindən qarşı tərəf bu rəqəmləri məqsədyönlü şəkildə gizlədir", - deyə Müdafiə Nazirliyindən bildiriblər.

*Nümunəvi xidmət*

# “Məsuliyyətimizi dərk edirik”

*"N" hərbi hissəsində Azərbaycanın dövlət mənafeyini müqəddəs tutaraq, torpaqlarımızın bütövlüyü uğrunda öz borcunu layiqincə yerinə yetirən zabitlərdən biri kapitan Əfqan Zeynalovla görüşürük. Onun haqqında qeydlər götürməyimiz səbəbsiz deyil. Komandanlıq onun əsl komandirə xas dərin hərbi biliyə, hadisələri əvvəlcədən duyub lazımi tədbirlər görmək qabiliyyətinə malik, tabeliyində olan şəxsi heyətə tələbkar və qayğıkeş bir komandir kimi dəyərləndirdi.*

Kapitanın ömür yolunu vərəqləyərkən öyrənirik ki, 14 may 1986-cı ildə Bakı şəhərində anadan olub. Cəmşid Naxçıvanski adına Hərbi Liseyi və Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini bitirib. Xidmətə ön xətdə başlayan zabitimiz taqım komandiri vəzifəsindən taborun qərargah rəisi vəzifəsinədək yüksəlib. 2016-cı ilin sentyabrından hərbi hissənin motoatıcı taborlarından birində qərargah rəisidir.

Hərb aləmini cazibədar bir vadi hesab etsək, bu vadinin sakinləri onun təravətini və cazibədarlığını qorumaq üçün daim axtarışda olmalıdırlar. Kapitan Əfqan Zeynalov da, sözün həqiqi mənasında, tabeliyində olan şəxsi heyətin hörmətini qazanan nümunəvi zabitlərdəndir.

Aprel döyüşlərinin iştirakçısı olan müsahibim bildirdi ki, hərbi hissəmizin döyüşdüyü istiqamətdə onlarla düşmən əsgəri məhv edildi. "Burada əsas məsələ xalqın orduya inamının və şəxsi heyətin döyüş ruhunun təsdiqini tapması idi. Bu baxımdan həmin döyüşləri yüksək dəyərləndirmək lazımdır. Bu bir həqiqətdir ki, əsgərlərdə əsl döyüş ovqatı yaranmışdı".



Kapitan Zeynalov bu tarixi qələbədə ordumuzun gücünü xüsusi qeyd etdi və gənclərimizin vətənpərvər olması amilini də vurğulamağı yaddan çıxarmadı. “Ön xətdə bir şeyi nəzərdən qaçırmaq lazım deyil ki, kim olursan ol, əsgərlə çiyin-çiyinə düşmənlə vuruşa atılmalısan. Əsgər yuxarı rütbəli şəxsləri postda görəndə daha da ürəklənir. Hərbi hissədə münasibətləri mehriban ünsiyyət əsasında qurmuşuq. Bölük komandirlərindən kapitan Vüsal Novruzovun, taqım komandiri leytenant Müşfiq Əliyevin, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularından Buğday Əliyevin, Raquf Qasımovun, Rauf Abbasovun və başqalarının adlarını qeyd etmək istəyirəm."

Sonda Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin diqqət və qayğısı nəticəsində yeni açılmış hərbi hissədə əsgərlərimiz və zabitlərimiz üçün istənilən şəraitin yaradıldığına toxunan kapitan Zeynalova görə, indi əsgərlərimiz və zabitlərimiz yaxşı başa düşürlər ki, dövlət rəhbərliyinin diqqət və qayğısından kənarda qalmırlar, buna görə də hər an torpaqlarımızı işğaldan azad etmək üçün məsuliyyətimizi dərk edirik. “Ali Baş Komandanın rəhbərliyi ilə tezliklə o sevinci Azərbaycan xalqına bəxş edəcəyik.”

**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

Hərbi təhsil

# Heydər Əliyev adına Hərbi Liseyin yaradılmasının 13-cü ildönümü münasibəti ilə tədbir keçirilib



Heydər Əliyev adına Hərbi Liseyin yaranması və keçdiyi inkişaf yolu Azərbaycanda ordu quruculuğu sahəsində görülən işlərin tərkib hissəsi kimi mühüm əhəmiyyət kəsb edir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin "Heydər Əliyev adına Hərbi Liseyin yaradılması haqqında" 27 fevral 2004-cü il tarixli Sərəncamı ilə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialının bazasında müstəqil hərbi lisey yaradılıb. Beləliklə, ümummilli liderimizin xatirəsinin əbədiləşdirildiyi ilk ünvan onun doğma yurdunda yaratdığı hərbi lisey olub. Heydər Əliyev adına Hərbi Lisey artıq 2004-cü ildən Ümummilli Liderimizin adına layiq, nümunəvi təhsil müəssisəsi kimi Silahlı Qüvvələrimizin savadlı, bacarıqlı, vətənpərvər zabitlərlə təmin olunması yolunda inamlı addımlar atır.

Bu günlərdə Hərbi Liseyin 13-cü ildönümü ilə bağlı tədbir keçirilib. Azərbaycan Respublikası Müdafiə nazirinin müavini - Əlahiddə Ümumqoşun Ordu komandanı general-leytenant Kərəm Mustafayev və tədbir iştirakçıları ümummilli lider Heydər Əliyevin hərbi liseyin ərazisində əzəmətlə ucalan büstü önünə tər çiçəklər düzüblər.

Azərbaycan Respublikasının Dövlət himni səsləndirildikdən sonra Heydər Əliyev adına Hərbi Liseyin rəisi general-mayor Elman Orucov Azərbaycan Respublikası Müdafiə nazirinin təbrikini şəxsi heyətə çatdırıb.



Sonra Azərbaycan Respublikası Müdafiə nazirinin müavini - Əlahiddə Ümumqoşun Ordu komandanı general-leytenant Kərəm Mustafayev liseyin pedaqoji və zabit heyətini, kursantları əlamətdar gün münasibətilə təbrik edərək fəaliyyətlərində uğurlar arzulayıb.

Hərbi liseyin müəllimi Məryəm Vəlibəyova və kursant Murad Hacıyev tədbirdə çıxış edərək yaradılan hərtərəfli şəraitə görə dövlətimizə minnətdarlıqlarını bildiriblər.

Təhsildə, mədəni-kütləvi tədbirlərdə fəallığı ilə seçilən kursantlar, tədrisdə fərqlənən müəllim və zabitlər qiymətli hədiyyə və fəxri fərmanla mükafatlandırılıblar.

Tədbir hərbi liseyin şəxsi heyətinin tribunanın önündən təntənəli keçidi ilə başa çatıb.

**Leytenant**
**Nəriman NƏCƏFOV,**
**"N" hərbi hissəsi,**
**fotolar**
**kursant**
**Qurban TAHİROVUNDUR**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı qüvvələrinin dayaq məntəqələrinin qərargahına cavab zərbəsi endirilib

Martın 1-i axşam saatlarında işğal altında olan Xocavənd rayonu istiqamətində Ermənistan silahlı qüvvələrinin mühəndis-istehkam baxımından hazırlanmış və atəş vasitələri ilə gücləndirilmiş dayaq məntəqələrinin qərargahına qoşunlarımız tərəfindən atəşlə cavab zərbəsi endirilib.

Qeydə alınan videogörüntüdə qərargah qarşısındakı hərbi nəqliyyat vasitələrinin və şəxsi heyətin məhv edilməsinin aydın görünməsinə baxmayaraq erməni tərəfi onlarla itkisinin sayını inadla gizlətməyə çalışır.

Bütün cəbhəboyu əməliyyat şəraitinə qoşunlarımız tam nəzarət edir.

## Düşmənin təxribat qrupu məhv edilib

Martın 2-nə keçən gecə cəbhənin Ağdərə-Tərtər istiqamətində Ermənistan silahlı qüvvələrinin kəşfiyyat-diversiya qrupu növbəti dəfə təxribat törətmək məqsədilə mövqelərimizə basqın etməyə cəhd göstərib.

Dərhal görülən tədbirlər nəticəsində düşmənin canlı qüvvəsi məhv edilib və o, geri çəkilməyə məcbur olub.

Qoşunlarımız heç bir itki verməyib və əməliyyat şəraiti tam nəzarətimizdədir.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***3 mart 2017-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan, 60, 82 və 120 millimetrlik minaatanlardan da (cəmi 196 mərmi) istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 265 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Dovex, Berdavan, İcevan rayonunun Ayqeovit, Vazaşen və Paravakar kəndlərində yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli, Bala Cəfərli kəndlərində və adsız yüksəkliklərdə, Ağstafa rayonunun Köhnəqışlaq kəndində, Berd rayonunun Ayqepar, Ayqedzor, Çinari kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli, Muncuqlu, Ağbulaq, Koxanəbi, Ağdam kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Sarıcalı, Mərzili, Yusifcanlı, Baş Qərvənd, Şıxlar, Cavahirli, Şirvanlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qorqan, Qaraxanbəyli, Aşağı Seyidəhmədli kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Əməliyyat şəraitinə uyğun olaraq bölmələrimiz tərəfindən adekvat cavab tədbirləri görülüb.

Heç kim unudulmur

# "Təki Vətən yaşasın"



***Vətən üçün canından keçən oğullar ən şərəfli, xalqın yaddaşında əbədiyyətə qovuşan insanlardır. Füzuli rayonu Əhmədalılar kəndinin sakini Orxan Həmidov da belə oğullardan biri oldu.***

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu olmuş Orxan ötən il aprel döyüşləri zamanı ömrünü canından əziz sevdiyi Vətənə bağışladı. Lələtəpə yüksəkliyinin düşməndən təmizlənməsində igidlik göstərən Orxan aprelin 3-də düşmən snayperinin gülləsinə tuş gəldi.

Yaşasaydı, fevralın 28-də ailəsi, iki övladı ilə birlikdə doğum gününü qeyd edəcəkdi. Həmin gün doğulub boya-başa çatdığı kənddə anım mərasimi keçirildi.

Tədbirdə Orxanın silahdaşları, sinif yoldaşları, Qarabağ müharibəsi veteranları, təhsil aldığı Əhmədalılar kənd tam orta məktəbinin müəllim və şagirdləri iştirak edirdi. Öncə qonaqlar Orxanın oxuduğu məktəbin qarşısına yığışdılar, sonra sinif otağına baş çəkdilər. Şagird yoldaşları unudulmaz məktəb illərində Orxanla bağlı xatirələrini bölüşdülər. Məktəbin direktoru Füzuli Həşimovun da yaddaşında onunla bağlı parlaq xatirələr qalıb. "Orxan səmimi, çalışqan, tərbiyəli bir şagird olub. Dərslərinə həmişə davamiyyətli idi, müəllimlərinin daim hörmətini saxlayırdı. O, uşaq yaşlarından vətənsevərliyi ilə də diqqəti cəlb edirdi. Həyat göstərir ki, belə oğullar qəhrəmanlığa da qadirdir."

Mərasim iştirakçıları məktəbdən Azərbaycan bayraqları ilə bəzədilmiş maşın karvanı ilə kənd qəbiristanlığına gəldilər, şəhidin məzarını ziyarət etdilər. Orxanı tanıyanlar, silahdaşları qəhrəmanın məzarı yanında da çıxış etdilər, onun qəhrəmanlığı barədə ürək sözlərini söylədilər.

Zabit Rafiq Nuriyev bildirdi ki, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu onun taqımında xidmət edib. Aprel döyüşlərində ürəklə düşmən üzərinə şığıyanlardan biri olub. Ona görə öz silahdaşlarının xatirəsini həmişə uca tutacaqlar.

- Orxan Həmidov Vətən torpağının azadlığı uğrunda canını əsirgəmədi, - zabit Namiq Soltanov çıxışında bildirdi. - Onun bu fədakarlığı hədər getmədi. Bu gün Orxanın məzarının yanından görünən Lələtəpə Azərbaycan Ordusunun nəzarəti altındadır. Orxan kimi qəhrəman oğulların qanı yerdə qalmayacaq. Ən böyük qələbə isə Azərbaycan torpaqlarının işğaldan azad edilməsi olacaq.

Şəhidin qardaşı Azər Həmidov bizimlə söhbətində dedi:

- Qardaş itkisi, təbii ki, ağırdır. Ancaq təsəlli odur ki, Orxan Vətən uğrunda şəhid olub. Bu ölüm şərəfli ölümdür. Prezidentimiz İlham Əliyev qardaşımın cəsurluğunu layiqincə dəyərləndirdi. Orxan "İgidliyə görə" medalı ilə təltif olunub. Hökumətimizin dəstəyi bizim üçün böyük dəyərdir. Təki Vətən yaşasın!

Şəhidin məzarını ziyarətdən sonra mərasim iştirakçıları Füzuli rayonu Dövlət Dram Teatrına gəldilər. Burada Əhmədalılar kənd tam orta məktəbinin müəllim və şagirdlərinin hazırladığı şəhid həmyerlilərinin xatirəsinə həsr edilmiş ədəbi-bədii kompozisiya nümayiş olundu.

Orxan Həmidovun anım mərasimi bir daha göstərdi ki, şəhidlər heç vaxt unudulmur, həmişə xalqın yaddaşında yaşayır.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun şəhid olmuş hərbçiləri dəfn edilib



Fevralın 24-dən 25-nə keçən gecə Ermənistan silahlı qüvvələrinin bütün cəbhəboyu törətdiyi irimiqyaslı təxribatların qarşısını alarkən şəhid olmuş hərbçi Nəzərov Şahlar Yaşar oğlu fevralın 28-də doğulduğu Yardımlı rayonunun Peştəsər kəndində son mənzilə yola salınıb.

Dəfn mərasimində şəhidin doğmaları, Yardımlı rayon İcra Hakimiyyətinin rəhbərliyi, rayonun hüquq-mühafizə orqanlarının əməkdaşları, "N" hərbi hissəsinin əsgər və zabitləri, ictimaiyyət nümayəndələri, Qarabağ müharibəsi veteranları, kənd sakinləri iştirak ediblər.

Vida mərasimində çıxış edən rayon icra hakimiyyətinin başçısı Ayaz Əsgərov şəhid zabitin ailəsinə dərin hüznlə başsağlığı verərək, torpaqlarımızın müdafiəsi uğrunda həlak olmuş Şahlar Nəzərovun xatirəsinin yardımlılıların qəlbində daim yaşayacağını diqqətə çatdırıb.

Şəhidin atası Yaşar Nəzərov Vətənə xidmətin hər bir övladın borcu olduğunu, oğlu ilə fəxr etdiyini bildirib.

Sonra yaylım atəşi altında şəhidin nəşi torpağa tapşırılıb.

* * *

Ermənistan silahlı qüvvələrinin cəbhəboyu törətdiyi irimiqyaslı təxribatların qarşısını alarkən şəhid olmuş Azərbaycan Ordusunun hərbi qulluqçusu Ağdam rayonu Mərzili kənd sakini Qədimov Zülfü Rəhim oğlu Beyləqanda son mənzilə yola salınıb.



Dəfn mərasimində şəhidin doğmaları, Ağdam, Beyləqan və Xocavənd rayonlarının İcra hakimiyyətlərinin, Müdafiə Nazirliyinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin, ictimaiyyətin nümayəndələri, "N" hərbi hissəsinin zabit və əsgərləri, Qarabağ müharibəsi veteranları, gənclər iştirak ediblər.

Mərasimdə çıxış edənlər Beyləqanda məskunlaşan şəhidin ailəsinə dərin hüznlə başsağlığı verib, bütün şəhidlərə Allahdan rəhmət diləyib, onların əziz xatirəsinin daim qəlblərdə yaşayacağını vurğulayıblar.

Şəhidin atası Rəhim Qədimov oğlu ilə fəxr etdiyini və qəhrəman əsgərlərimizin Zülfünün qisasını yerdə qoymayacağına əminliyini bildirib.

Şəhidin nəşi Həzrəti Cərciz Peyğəmbər ziyarətgahındakı Şəhidlər xiyabanında əsgəri ənənələrə uyğun olaraq yaylım atəşi altında torpağa tapşırılıb, məzarı üstünə əklil və tər qərənfillər qoyulub. Zülfü Qədimovun tabutu üzərinə çəkilmiş üçrəngli Dövlət bayrağı əbədi xatirə olaraq ailəsinə təqdim edilib.

* * *

Fevralın 24-dən 25-nə keçən gecə Ermənistan silahlı qüvvələrinin bütün cəbhə boyu törətdiyi irimiqyaslı təxribatların qarşısını alarkən şəhid olmuş hərbi qulluqçu, Şəki rayon sakini, 1982-ci il təvəllüdlü Abdullayev Aqşin İsmayıl oğlu fevralın 28-də doğulduğu Kiş kəndində torpağa tapşırılıb.

Şəhidin dəfn mərasimində Şəki şəhər İcra Hakimiyyətinin rəhbərliyi, Müdafiə Nazirliyinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəsmiləri, şəhidin döyüş yoldaşları, ictimaiyyət nümayəndələri, minlərlə rayon sakini iştirak ediblər.

İzdihamlı mərasimdə çıxış edənlər şəhidin ailə üzvlərinə və yaxınlarına dərin hüznlə başsağlığı verib, Vətən uğrunda şəhid olan qəhrəman övladlarımızın qanının yerdə qalmayacağını, düşməndən amansız qisas alınacağını, torpaqlarımızın tezliklə işğaldan azad olunacağını bildiriblər.

Şəhidin nəşi Dövlət himninin sədaları və yaylım atəşi altında torpağa tapşırılıb, məzarı üstünə əklil və gül dəstələri qoyulub. Tabut üzərinə çəkilmiş üçrəngli Azərbaycan bayrağı ailəsinə təqdim edilib.

İzdihamlı dəfn mərasimində iştirak edən minlərlə insan "Qarabağ bizimdir, bizim olacaq!", "Şəhidlər ölməz, Vətən bölünməz!" şüarlarını səsləndirərək, Kiş kəndinin igid oğlunun xatirəsinə ehtiramlarını bildiriblər.

* * *

Azərbaycan Silahlı Qüvvələrinin şəhid olan əsgəri, 1997-ci il təvəllüdlü, Tovuz rayonu Yanıqlı kənd sakini Əhmədov Elvin Süleyman oğlu dəfn edilib.

Şəhid Elvin Əhmədov böyüyüb boya-başa çatdığı Tovuz rayonunun Yanıqlı kəndində, kənd qəbiristanlığında torpağa tapşırılıb və ruhuna dualar oxunub.

Mərasimdə rayon rəhbərliyi, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsinin əməkdaşları, "N" hərbi hissəsinin əsgər və zabitləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Çıxışlarda torpaqlarımızın bütövlüyü uğrunda döyüşən əsgər və zabitlərimizin şücaəti yüksək qiymətləndirilib, şəhidlərimizin ruhuna dualar oxunub.

Şəhid atası Süleyman Əhmədov övladının Vətən uğrunda şəhid olmasından qürur duyduğunu deyib.

Döyüş yoldaşları Elvini hər zaman vətənsevər, mərd, cəsur bir gənc kimi tanıdıqlarını bildiriblər.

Tabut üzərinə örtülmüş üçrəngli Dövlət bayrağı şəhidin atasına təqdim olunub.

Elvin Əhmədovun nəşi minlərlə insanın müşayiəti ilə əsgəri ənənələrə uyğun yaylım atəşi altında torpağa tapşırılıb, məzarı üstünə əkliller və tər qərənfillər düzülüb.

* * *

Fevralın 24-dən 25-nə keçən gecə Ermənistan silahlı qüvvələrinin törətdiyi irimiqyaslı təxribatın qarşısını alarkən qəhrəmancasına şəhid olan Azərbaycan Ordusunun hərbi qulluqçusu, 1988-ci il təvəllüdlü Haşımlı Tural Əbdül oğlunun cənazəsi fevralın 28-də Naxçıvana gətirilib.

Naxçıvan Beynəlxalq Hava Limanında qəhrəman şəhidimizin nəşini minlərlə naxçıvanlı qarşılayıb. Yüzlərlə avtomobildən ibarət karvanın müşayiəti ilə şəhidin cənazəsi doğulduğu Ordubad rayonuna aparılıb. Ordubad şəhərinin girişindən şəhidin evinə və Ordubad şəhərindəki Şəhidlər xiyabanına kimi minlərlə Ordubad sakini yürüş edib. Yürüş iştirakçıları "Qarabağ bizimdir, bizim olacaq!", "Şəhidlər ölməz, Vətən bölünməz!" kimi şüarlar səsləndiriblər.

Şəhidin dəfn mərasimində dövlət və hökumət nümayəndələri, Ordubad rayon İcra Hakimiyyətinin rəhbərliyi və əməkdaşları, Əlahiddə Ümumqoşun Ordusunun, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəsmiləri, şəhidin döyüş yoldaşları, ictimaiyyət nümayəndələri, minlərlə rayon sakini iştirak ediblər.



İzdihamlı mərasimdə çıxış edənlər şəhidin ailə üzvlərinə və yaxınlarına dərin hüznlə başsağlığı verib, Vətən uğrunda şəhid olan qəhrəman övladlarımızın qanının yerdə qalmayacağını, düşməndən amansız qisas alınacağını, torpaqlarımızın tezliklə işğaldan azad olunacağını bildiriblər.

Şəhidin ruhuna dualar oxunub. Azərbaycan Respublikasının Dövlət himni və yaylım atəşinin müşayiəti ilə şəhid Tural Haşımlı dəfn edilib, məzarı üstünə əkliller və tər qərənfillər düzülüb. Tabut üzərindəki üçrəngli Azərbaycan bayrağı şəhidin atasına təqdim edilib.

* * *

Fevralın 24-dən 25-nə keçən gecə Ermənistan silahlı qüvvələrinin bütün cəbhə boyu törətdiyi irimiqyaslı təxribatların qarşısını alarkən şəhid olmuş hərbi qulluqçumuz Cəfərov Zakir Nazim oğlunun fevralın 28-də Bakının Nizami rayonunda son mənzilə yola salınması mərasimi keçirilib.

Şəhidin cənazəsi son mənzilə izdihamlı dəfn mərasimində iştirak edən minlərlə insanın "Qarabağ bizimdir!", "Azərbaycan!" sədaları altında yola salınıb.

Şəhidin dəfn mərasimində rayon icra hakimiyyətinin rəhbərliyi, Müdafiə Nazirliyinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəsmiləri, rayonun hüquq mühafizə orqanlarının kollektivləri, şəhidin döyüş yoldaşları, ictimaiyyətin nümayəndələri, minlərlə rayon sakini iştirak ediblər.

Şəhidin tabutu üzərinə çəkilmiş Azərbaycanın üçrəngli bayrağı atasına təqdim edilib.

İzdihamlı mərasimdə çıxış edənlər şəhidin ailə üzvlərinə və yaxınlarına dərin hüznlə başsağlığı veriblər. Qeyd edilib ki, Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçən Zakir kimi igidlərin əməlləri, fədakarlığı vətənpərvərliyi torpaqlarımızın tezliklə işğaldan azad olunacağını deməyə əsas verir. Çünki bu torpağı canından artıq sevən cəsarətli, vətənpərvər gənc nəsil yetişir. Elə mərasimdə uca dalğalanan bayrağımız, açılan yaylım atəşləri, hər yanı bürüyən çiçəklər də həm şəhidlərimizin, həm də xalqımızın yenilməz ruhunun, tezliklə Ali Baş Komandanımızın başçılığı ilə qazanılacaq qələbənin müjdəçisidir.

**AZƏRTAC-ın materialları əsasında**

AZƏRBAYCAN ORDUSU

4 mart 2017-ci il

Ordu və cəmiyyət

# “Jurnalistika söz əsgəridir”

*Müsahibimiz AMEA Nizami adına Ədəbiyyat İnstitutunun "Azərbaycan-Asiya ədəbi əlaqələri" şöbəsinin müdiri, filologiya üzrə elmlər doktoru, professor, "Qızıl kələm" mükafatı laureatı, Qarabağ müharibəsi veteranı Bədirxan Əhmədlidir.*



***- Bədirxan müəllim, 1992-1999-cu illərdə "Xalq Ordusu", indiki "Azərbaycan Ordusu" qəzetinin hərbi müxbiri, şöbə rəisi, baş redaktor müavini olmusunuz. Səmimiyyətlə xatırlayaq ki, öz üslubu, mövzulara münasibəti olan jurnalist kimi tanınırdınız. İlk hərbi mətbuatımızda ordu və cəmiyyət mövzusu necə işıqlandırılırdı?..***

- Həm elmlə, həm də jurnalistika ilə məşğul olurdum. "Vətən səsi" qəzetində işləyirdim. Müdafiə Nazirliyi yaradılandan sonra "Xalq Ordusu" qəzeti nəşrə başladı. Səməd Vurğun demişkən, mən də müsəlləh əsgər olmağı qərara aldım. Müstəqil Azərbaycanın ilk hərbi mətbu orqanı olan qəzetdə işləməyə, az sonra hərbi xidmətə başladım. O illərdə hərbi publisistika yenicə yaranır və formalaşmağa başlayırdı. Hərbi jurnalistikanın bitkin şəkildə formalaşmadığı bir zamanda "Xalq Ordusu" qəzeti milli və hərbi vətənpərvərlik təbliğatının mətbu tribunası oldu. Onun həssaslıqla yanaşdığı sahələrdən biri də ordu və cəmiyyət mövzusu idi. Alimlərin, yazıçı və şairlərin ordu haqqında düşüncələri, fikirləri vaxtaşırı dərc olunurdu. Professor Nizami Cəfərovla, ədəbiyyatşünas Arif Əmrahoğlu ilə müsahibələrim bu qəbildəndir.

Bizim vəzifəmiz cəbhə bölgəsindən operativ və düzgün informasiya vermək, cəmiyyətin orduya inandığını, mənəvi dəstəyini çatdırmaq idi. Təbii ki, ordu quruculuğunun nəzəri məsələləri də unudulmurdu.

O dövrdə də ədəbiyyatın döyüşə-döyüşə formalaşan orduda vətənpərvərlik duyğusunun dərinləşdirilməsində rolu diqqət mərkəzində saxlanılırdı. Qəzetin hər sayında birinci səhifədə hərbi marşlar verilirdi. Yəni ədəbiyyatın, bu anlamda poeziyanın ordu quruculuğuna xidmətini reallaşdırırdıq. Müasir Azərbaycan şairlərinin milli vətənpərvərlik şeirləri də daxil olmaqla 1998-ci ildə tərtib etdiyim "Hərbi marşlar, döyüş nəğmələri, qəhrəmanlıq şeirləri" kitabı əsgərlərimizə hədiyyə edildi. Bu, özlüyündə, ədəbiyyatın məcburən müharibəyə cəlb olunmuş dövlətin əsgərinə xidmət kimi qəbul edilməlidir.

***- Belə yaşarı münasibət çağdaş jurnalistikamızda necə davam etdirilir?***

- İnkişaf böyük ölçüdədir. İndi idman, mədəniyyət, sosial jurnalistika kimi hərbi jurnalistika da ayrıca bir sahə kimi formalaşıb. Silahlı Qüvvələrimizdə həyata keçirilən böyük islahatlar "Azərbaycan Ordusu" qəzetinin fəaliyyətində də nəzərə çarpır. Belə demək mümkünsə, "Azərbaycan Ordusu" cəmiyyətlə ordu arasında mətbu əlaqələndiricidir. Ordunun cəmiyyətə, cəmiyyətin orduya etibarının timsalı olan əlaqələndirici. Orduya cəmiyyət haqqında, cəmiyyətə ordu haqqında dürüst informasiya verən qəzet, təbii ki, formalaşdıqca bu inam daha da dolğunlaşır.

***- Cəmiyyətin tərkib hissəsi olan ordu haqqında ziyalı fikirləri həmişə gərəkli olub...***

- Ordu cəmiyyətin olduqca həssas hissəsidir. Cəmiyyətdə baş verənlər, müəyyən mənada, orduya da təsir göstərir. Ona görə də cəmiyyətin intellektual təbəqəsi olan ziyalılar ordu haqqında müntəzəm düşünməli, onun daha möhtəşəmliklə formalaşmasında, inkişafında, güclənməsində mənəvi stimul olmalıdır. Bu, ordunun nüfuzunun mühafizəkarı olmaq deməkdir. Ziyalı fəaliyyətində, məqalə və kitablarında, bu və ya digər müvafiq elmi konfranslarda bu amilin daşıyıcısı olmalıdır. Onu da unutmamalıdır ki, gənclər orduya cəmiyyətdən gedir. Əgər cəmiyyət sağlamsa, məktəbdə, ali təhsil müəssisələrində vətənpərvərlik ruhunda düzgün tərbiyə edilibsə, həmin gənc orduda da layiqincə xidmət edəcək. Bu da özlüyündə cəmiyyətlə ordunun fasiləsiz əlaqəsinin təmin edilməsi deməkdir. Bu baxımdan ordu haqqında əsassız fikir səslənincə ilkin reaksiya ziyalıdan gəlməlidir, ordunun uğurlarını da ilkin olaraq ziyalı dəstəkləməlidir. Ziyalı münasibəti bu baxımdan gərəklidir. Axı ordu xalqındır, dövlətindir. Ziyalı xalqın ziyalısıdır, dövlətin ziyalısıdır.

***- Bu baxımdan fəaliyyətinizi necə qurursunuz?***

- Gənclərin hərbi və milli vətənpərvərlik tərbiyəsi AMEA Nizami adına Ədəbiyyat İnstitutunda sədri olduğum Veteranlar Şurasının fəaliyyətinin əsas prioritetlərindəndir. Slavyan Universitetinin professoru kimi də tələbələrimlə söhbətlərdə bu haqda ətraflı fikir mübadiləsi aparırıq. İştirak etdiyim tədbirlərdə, yeniyetmələrlə, gənclərlə, əsgərlərlə görüşlərdə onların dünyagörüşlərdə onların dünyadu-yumuna, vətənpərvərlik hisslərinin formalaşmasına, dərinləşməsinə ədəbiyyat vasitəsilə təsir göstərməyi özümə ziyalılıq, ziyalılıqdan da vacib vətəndaşlıq borcu bilirəm.

***- Jurnalistika kimi ədəbiyyat da ordu quruculuğunda vəsilə olur...***

- Təbii ki, belədir. Ədəbiyyatın böyük təsir gücünə malik olması danılmazdır. Ədəbiyyatşünas alim ədəbi prosesləri də izləyir, bu haqda məqalələr, kitablar yazır, təhlilə cəlb etdiyi əsərlərin cəmiyyət üçün gərəkliyinə də münasibət bildirir. Gənclərlə, əsgərlərlə görüşlərində məhz bu əsərlərə söykənir. Ədəbiyyat da, ədəbiyyatşünaslıq da jurnalistika kimi, müəyyən mənada, ordu quruculuğuna xidmət edir. Deməli, cəmiyyətlə ordu eyni amal naminə vahidləşir. Jurnalistika da bu vahidləşmənin dialektikasını tarixləşdirir. Bu prosesin zərrəsi olan məqalələr birmənalı şəkildə dəyərli məqalələrdir.

***- Yeri gəlmişkən, jurnalistika, əsasən publisistika müharibəyə təsir edirmi?***

- Jurnalistikanın, bu anlamda publisistikanın müharibəyə təsiri danılmazdır, lakin bu, hər zaman gözə görünmür. Bu təsir sanki sualtı proseslərdə baş verir, çünki müharibəni aparan bütövlükdə xalqdır, xalqın əhval-ruhiyyəsini publisistika və ədəbiyyat tənzimləyir. Vaxtilə S.Vurğunun "Bilsin ana torpaq, eşitsin Vətən, Müsəlləh əsgərəm mən də bu gündən!" sözlərinin xalqın müharibəyə hazırlanmasında rolunu heç kim dana bilməz. Bu, hər şeydən əvvəl, ədəbiyyatın cəmiyyətə, zamanında müharibəyə münasibətini formalaşdırırdı. Müharibə gedən ölkədə informasiyanın təsir gücünü düzgün qiymətləndirmək lazımdır. 90-cı illərin təcrübəsindən də bilirik ki, istər ölkə daxilində, istərsə də xarici auditoriyada jurnalistikanın birbaşa müharibəyə təsir gücü vardır. Publisistika da cəmiyyətdə çox böyük qüvvəyə malikdir. Vətən uğrunda şəhid olan, qəhrəmanlıq göstərən əsgər və zabitlərimizi cəmiyyətə tanıtmaq publisistikanın üzərinə düşür. Eyni zamanda, bu və ya digər həssas məqamlar publisistikayla, daha dəqiqi, publisistik düşüncələrlə ictimailəşdirilir. Publisistikadan sonra böyük ədəbiyyat gəlir. Xalqın qələbə əzmini bədii düşüncədə yaşatmaq, verdiyi mücadiləni bədii yaddaşa köçürmək ədəbiyyatın işidir.

***- Müharibənin jurnalistikaya, əsasən publisistikaya təsiri. Şübhəsiz ki, belə bir təsir var.***

- Müharibə jurnalistikaya, informasiya ilə bir sırada publisistikaya təsir göstərir; publisistikanın mövzu və problematikası dəyişir. İstər-istəməz hərbi, milli vətənpərvərlik yönümlü yazılar çoxalır. Yəni müharibə dövrünün jurnalistikası ilə dinc dövrün jurnalistikası arasında xeyli dərəcədə fərq vardır.

Çağdaş publisistika "Vətəni sev!" demir, Vətən sevgisini obrazlaşdırır. Əsgərlərin timsalında, şəhidlərin timsalında. Aprel döyüşlərində şəhid olanlar haqqında yazılanların müəyyən hissəsi peşəkarlıq baxımından dəyərlidir. Əgər məqalə Vətən məfhumuna vətəndaşlıq mövqeyindən yanaşmaqla, əgər Vətən sevgisinin işığı sezilərək yazılıbsa, bu işığı digərlərində də görmək niyyətiylə yazılıbsa, həmin məqalə jurnalistikanın uğuru hesab edilməlidir.

***- 2016-cı ilin aprel döyüşləri, döyüşlərin nəticələri cəmiyyətdə hansı ovqatla yaşanıldı?***

- Azərbaycan mediası, bu sıradan "Azərbaycan Ordusu" aprel döyüşlərinin mətbu cəfakeşi oldu. Operativ, dürüst, milli mənafelərə heysiyyətlə yanaşma - bu, apreldə medianın fəaliyyət üfüqləri oldu.

Cəmiyyət aprel döyüşlərini Azərbaycan əsgəri üçün Böyük Qələbənin başlanğıcı bildi. Bu qələbə Azərbaycan cəmiyyətini hərəkətə gətirdi, arzulanan bir canlanma yarandı, cəmiyyətin ovqatı Qələbəyə kökləndi. Xalq onsuz da ordusuna, Ali Baş Komandana inanırdı. Aprel qələbəsi cəmiyyətin bu inamını daha da kükrətdi.

Sülh danışıqları baş tutmasa, çağdaş jurnalistikamız Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Aprel döyüşləri bizim şanlı tariximizdir. Aprel döyüşləri bizim şanlı qələbəmizdir" fikrini işğal olunmuş torpaqlarımızın döyüşlə azad ediləcəyi haqqında ciddi bəyanat bilir.

İnanıram ki, jurnalistikamız bundan sonra da ordu ilə cəmiyyət arasında mətbu əlaqələndirici olacaq. Həm də etibarlı əlaqələndirici. Onların sırasında "Azərbaycan Ordusu" qəzeti də. Jurnalistikanın söz əsgəri olduğu unudulmamalıdır.

**Söhbətləşdi:**
**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**

# Xəbərlər:
## hadisələr, faktlar

### İŞİD lideri tərəfdarları qarşısında vida çıxışı edib



İŞİD qruplaşmasının başçısı Əbu Bəkr əl-Bağdadi öz çıxışında bu yaxınlarda baş verən döyüşlərdə məğlubiyyəti etiraf edib.

Əl-Bağdadi vida xütbəsində qruplaşmanın üzləşdiyi məğlubiyyət barədə danışdıqdan sonra tərəfdarlarına Suriya və İraqdakı çətin keçilən dağ rayonlarına çəkilməyi məsləhət görüb.

Xatırladaq ki, Mosulun azad edilməsinə yönəlmiş irimiqyaslı əməliyyatlar oktyabrın 17-də başlayıb. Beynəlxalq anti-terror koalisiyasının hava dəstəyi ilə keçirilən əməliyyatlarda iştirak edən hökumət qüvvələri iki ildən artıqdır ki, İŞİD qruplaşmasının nəzarəti altında olan Mosulun şərq hissəsini azad edib. Hazırda İraq ordusu qərbi Mosul istiqamətində hücumları davam etdirir.

### İran hərbi xərclərini artırıb



İran prezidenti ölkənin hərbi büdcəsini artırıb.

Bu barədə İranın planlaşdırma və büdcə təşkilatının rəhbəri Məhəmməd Baker yerli mətbuata açıqlamasında bildirib.

Onun sözlərinə görə, gələn il (İranda yeni il martın 21-dən başlayır) dövlət büdcəsindən müdafiə xərcləri üçün 11,6 milyard dollar vəsait ayrılacaq. Ötən il isə bu rəqəm 10 milyard dollar olub.

### Türkiyənin cənub-şərqində PKK qruplaşmasının iki lideri öldürülüb



Türkiyənin cənub-şərqində yerləşən Mardin əyalətində keçirilən antiterror əməliyyatı nəticəsində PKK qruplaşmasının iki lideri öldürülüb.

Nusaybin şəhərinin Doğanlı məhəlləsində məhv edilən terrorçulardan biri - Soro ləqəbli Salih Kaplanın başına 1,5 milyon türk lirəsi (410 min dollar) həcmində mükafat qoyulmuşdu. PKK-nın Mardin əyalətindəki fəaliyyətinə məsul olan Soro terrorçuların Türkiyə Daxili İşlər Nazirliyi tərəfindən tərtib edilmiş "mavi" siyahısında yer alırdı. Öldürülən digər PKK lideri Hacire Tanhan Mardində fəaliyyət göstərən qruplaşma tərəfdarları arasında nüfuzuna görə ikinci şəxs idi.

### Alimlər: Kanada dünyanın ən qədim yaşayış məskənidir



Alimlər Kanadada insanların ən az 3,8 milyard il əvvələ aid yaşam izlərini aşkar ediblər.

Alimlər Kanadadakı Kvebek əyalətinin şimalında apardıqları elmi araşdırmadan sonra bu qənaətə gəliblər. Müəyyən edilib ki, buradakı insan izləri əvvəllər aşkar edilənlərdən 100 milyon il daha qədimdir.

Qeyd edək ki, əvvəlki izlərin 3,7 milyard yaşı olduğu bildirilirdi.

### Naməlum şəxslər İsveçə 66 kiloqramdan çox partlayıcı maddə gətirməyə cəhd ediblər



İsveçin Höteborq şəhərində çıxan "Göteborgs-Posten" qəzeti yazır ki, şəhər polisi və gömrük xidmətləri şübhəli konteynerə baxış zamanı orada 66 kiloqramdan çox partlayıcı maddə aşkar ediblər.

Höteborq şəhər polisinin nümayəndəsi Tomas Fuksborq "Göteborgs-Posten" qəzetinə verdiyi müsahibədə bildirib ki, bu maddələr təyinatı üzrə istifadə edilməyə tam hazır idi. O daha sonra əlavə edib ki, polis həmin konteynerin ölkəyə gətirilməsi təfərrüatını təhqiq edir.

**AZƏRTAC-ın materialları əsasında**

Könlüm şeiriyyət üzünə həmişə açıq olub. Duyğularımın sığallı-tumarı olduğuna görə, düşüncələrimin dadı, ruhumun adı olduğuna görə, torpağı Vətənləşdirdiyinə görə, yaşantılarımı torpağa kökləndiyinə görə. Könlüm qubarlananda da, sevincimə darlıq eləyəndə də, hayıma şeir, şeiriyyət yetib, ürəyim sevincimə darlıq eləyəndə də...

Şair Yusif Nazim Ərəbsoyun "Bayraq" şeirini oxudum. Şeir kimi oxudum, sevgi duası kimi dərk etdim...

Türk şairi Akif Nihat Asya bayrağa "savaşın qartalı" deyirdi, yüksək yerlərdə açan çiçəyim deyirdi. Gözəl deyirdi. Bayrağımızı savaşın qartalı bilən Azərbaycan əsgəri onu yaxın vaxtlarda işğaldan azad edəcəyi torpaqlarda da dalğalandıracaq!

Ötən ilin aprel döyüşləri hamı kimi məni də bir boy dikəltdi. Lələtəpədə, Bayraqtəpədə gözəlim Bayrağımızı bağrıma basdım. Bu ünsiyyətin ömürləşən anlarını Cıdır düzündə də yaşamaq, var səsimlə hayqırmaq istəyirəm: "Bayrağım - Vətənim!", "Vətənim - bayrağım!". Bu, Azərbaycan əsgərinin vətənsevərliyinin qüdrətidi, "Bayraq" şeiri bu qüdrətin zərrəsidi...

Bu şeir ürəyimi dağa döndərib. Yayın bürküsündə arzulanan meh bilirəm bu şeiri, dan üzü gözəlim çiçəklərin ləçəklərində alışan şeh bilirəm, göy üzünü gözəlləşdirən qövsi-qüzeh bilirəm. Şeiriyyətin qüdrətidi bu, fikrin şeiriyyətinin - şeirin qüdrətidi. Oxuduğum andan misraların, bütövlükdə şeirin cazibəsindəyəm. Bayrağa sevgini, Bayrağa sevginin şeirləşməsini sezənlər şeirin poetexnikasını bəyənir, mahiyyətini ruhuna

## Ovqat

# "Olsun bu Vətən torpağı başdan-başa bayraq!"



can ortağı bilir. Bayraq naminə şəhid olanların, bayrağı şəhidin son örtüyü bilənlərin adından yazılıb sanki. Ona görə bunca duyğusaldı, ona görə oxuyanın ürəyinə hopur, ona görə oxunduqca oxunur...

"Varsansa, demək, məmləkətim var" - Vətən sevgisinə söykənən qətiyyətdi. Bu qətiyyətə biət bildiyim inamdı. Bu inama söz ömrü verən misradı; belə olduğu üçün "Yaşa, bayraq!" - deyir şair. Həm də o qədər səmimiyyətlə deyir ki! Xalqın, millətin adından deyir...

O qətiyyət, o biət, o inam bir istək, dönməz bir amal üçün deyilib: "Sancıl Şuşada torpağa, bayraq, daşa bayraq!". Lələtəpə, Bayraqtəpə zəfərini qazanan Azərbaycan əsgərinin adından deyilib. Şeir ona görə belə könüləyatımlıdı, ona görə belə çılğındı, bu istək ona görə yerə-göyə sığışmır...

"Əllərdə, könüllərdə və dillərdə qərar tut". Sənə, mənə - bizə ünvanlanmış tövsiyədi. Dədə Qorqudluq var bu tövsiyədə. Eşidilməli, əməl edilməli, yaşadılmalı tövsiyədi. Bu tövsiyənin bircə anlamı var: əllərdə, könüllərdə və dillərdə qərar tut ki, "Olsun bu Vətən torpağı başdan-başa bayraq!..". Nə qədər möhtəşəm deyilib! Nə qədər möhtəşəmliklə oxunur, dərk edilir! Nə qədər yaşadılmalı istəkdi!

İstək müqəddəs istəkdi, min illərin bətnindən süzülüb gəlir kimi dərk edilməlidi, belə yaşadılmalıdı. Vətənin istəyidi bu istək! Bu istək mənə "Vətən istəyərsə, Vətənə görə, Candan keçənlərin sırasındayam!" misralarını yazdırmaq gücündəymiş...

Yusif Nazim Ərəbsoyun "Bayraq" şeiri nəyi xatırladır? - Türkiyənin istiqlal savaşını: Çanaqqala ətrafında bir alay tamamilə şəhid olub. Mehmetcik ağır yaralıdı. Təkdi. Əlindəki bayrağa baxır. Baxıb köksünə sıxır. Gözləri dolur. Çarəsizliklə göy üzünə boylanır. Bir qədər aralıdakı ağacı görüncə gözlərinin işığı artır elə bil. Son gücünü toplayır. Dirsəklənir. Ayağa qalxır. Alayın bayrağını ağacın budağına sancmağa gücü çatır. Və son nəfəsini çəkir. Üzündə şükranlığa bükülü bir təbəssüm donur...

Yusif Nazim Ərəbsoyun "Bayraq" şeiri nəyi xatırladır? - Qarabağda gedən döyüşləri:

...Əks-hücum səngiyir. Kapitan Yusif Mirzəyev sövq-təbii, sağ tərəfdə vuruşan əsgərə baxır. Əsgər tərpənmir. Səsləyir. Cavab gəlmir. Qəlbinə daman damır; əsgər şəhid olub...

Rəhimin sol əli sinəsinə uzalı qalıb. Barmaqlarının arasında Azərbaycanımızın üçrəngli bayrağı qapanıb. Yusifin gözləri dolur. Dodaqlarını dişləriylə sıxıb Rəhimin üstünə döşənir. İçin-için ağlayır. Başını qaldıranda başqa döyüşçüləri də ətrafında görür. Hamısının yanağı boyunca göz yaşları axır. Hamısının əlində Azərbaycanımızın bayrağı dalğalanır. Hamısı döyüşə bayrağımızla qoşulubmuş. Hamısı bayrağımız eşqinə vuruşurmuş. Hamısı bayrağımızı şəhidlik kəfəni bilirmiş...

Dövlət bayrağının işığında vuruşanlar məğlub olmur, ya qələbə qazanır, ya şəhid olur. Azərbaycan əsgəri kimi...

Yusif Nazim Ərəbsoyun "Bayraq" şeiri Azərbaycan əsgərinin mənəvi dünyasının şeiridi, Azərbaycan əsgərini Böyük Qələbəyə səsləyən şeirdi...

Azərbaycan əsgəri deyir ki, yaxın vaxtlarda Vətən torpağı başdan-başa bayraqlaşacaq, biz bayraqlaşdıracağıq!..

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

# Hərbi ənənələr, yeniliklər



## Hidroakustik "Zevs" silahı

Rusiyada hərbi-dəniz bazalarının, liman tikililərinin və s. obyektlərin qorunmasında əsas çətinliklərdən biri də sualtı diversantlara qarşı mübarizənin təşkilidir. Bu məqsədlə dövlətin təhlükəsizliyini təmin etmək üçün beynəlxalq sərgi zamanı mütəxəssislər tərəfindən hidroakustik "Zevs" mühafizə sisteminin yaradılması böyük marağa səbəb olub. Bu sistem özündə akvatoriyaların mühafizəsi üzrə mühəndis-texniki vasitəni təsvir edir. "Zevs" sistemi akvatoriyalardan gözlənilən təhlükənin qarşısını almaq üçün nəzərdə tutulub. Diversantlara qarşı daha çox təsirli hidrozərbədir. "Zevs" özünə sualtı modul, buraxıcı-qaldırıcı qurğunu, suüstü idarəetmə blokunu, kommutasiya kabel dəstini daxil edir.



Verilən məlumata görə, bu sistem istismarda çox asan və təhlükəsizdir, digər qurğulara nisbətən "Zevs" böyük uzaqlığa malikdir. Onun hərəkətetmə prinsipi elektrodinamik şüalanmadan istifadəyə əsaslanıb. Hansı ki, suda güclü hidroakustik impuls yaranır və su altında olan dalğıcın bədəninə daxil olaraq ağrı yaradır. Hidroakustik impuls insan orqanizmində ağrılı fəsadlara gətirib çıxara bilər. Bu, əsasən də mədə, ciyər, bağırsaq, sümük hissələrində fəsad yaradır. 130 kiloqramlıq çəkidə silahın uzaqlığı 100 metrdən az deyil. Dərinliyə yüklənməsi 10 metr, impulslar arasında interval 10-90 saniyədir. Tələb olunan gücü 100 vt-dır.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# İdman

## Ağır atletlərimiz II Beynəlxalq Fəcr Kubokunda iştirak edəcəklər

Martın 9-da İranın Əhvaz şəhərində ağır atletika üzrə II Beynəlxalq Fəcr Kuboku keçiriləcək.

Nüfuzlu yarışda ölkəmizin ağır atletika yığmasının üzvləri də iştirak edəcəklər. Komandamızın heyəti artıq müəyyənləşib. Heyətə Ruslan Rzazadə (56 kq), Allahyar Abışov (62 kq), Sabit Bayramov (69 kq), Orxan Zeynalov və Kənan Əliquliyev (hər ikisi - 77 kq), Sənan Mirzəyev (85 kq), Xəlil Gəraylı (105 kq) və Asxab Kolayev (+105 kq) daxil ediliblər.

## Karate üzrə VIII "Baku Open" turnirinə hazırlıqlar başa çatmaq üzrədir



Ənənəvi yarış martın 11-12-də Bakı İdman Sarayında keçiriləcək.

Beynəlxalq turnirdə bir neçə ölkədən idmançıların iştirakı gözlənilir. Yarışda yeniyetmə və gənclərdən ibarət seçmə komandaların heyəti bir daha sınaqdan keçiriləcək. Nəticələr əsasında formalaşdırılacaq yeni heyət qarşıdakı yarışlarda gücünü sınayacaq.

## Azərbaycan idmançıları ciu-citsu üzrə dünya çempionatında 1 qızıl və 3 gümüş medal qazanıblar



Azərbaycan Ciu-Citsu Federasiyasının yığma komandasının üzvləri Bolqarıstanın Bansko şəhərində güc strukturları arasında keçirilən dünya çempionatında 1 qızıl və 3 gümüş medal qazanıblar.

Vüqar Cəfərov (69 kq) 30-35 yaşlı ustalar arasında faytinq üzrə yarışda bütün rəqiblərinə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Orxan Rüstəmli (94 kq) faytinq yarışında gümüş medala layiq görülüb. Yığmamızın daha bir üzvü Riad Camalbəyli (79 kq) nevadze kateqoriyası üzrə yarışın finalında uduzaraq gümüş medalla kifayətlənməli olub. Vüqar Cəfərov isə ağır çəki dərəcəsində mübarizədə ikinci yeri tutub.

Yarışda 15 ölkədən 350-dən çox idmançı iştirak edib.

## "Neftçi İdman Klubu"nun boksçuları ölkə birinciliyində 5 medal qazanıblar



Gənclər arasında boks üzrə respublika birinciliyi başa çatıb. Azərbaycan Boks Mərkəzində keçirilən yarışda 10 çəki dərəcəsi üzrə 160 dəri əlcək ustası qüvvəsini sınayıb.

"Neftçi İdman Klubu"nun boksçuları ölkə birinciliyinin 5 medalını (1 qızıl, 1 gümüş, 3 bürünc) qazanıblar və komanda hesabında 3-cü yerə çıxıblar.

Klubun yetirmələrindən 49 kiloqram çəki dərəcəsində mübarizə aparan Əflatun Babayev bütün döyüşləri qələbə ilə başa vuraraq fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Yalnız final qarşılaşmasında məğlub olan Orxan Həsənov (56 kq) gümüş medalla kifayətlənib.

Mirmehdi Mehdizadə (49 kq), Amil İlyasov (52 kq) və Rəcəb Niftəliyev (81 kq) isə yarışdan bürünc medalla ayrılıblar.

**AZƏRTAC-ın materialları əsasında**

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
leytenant
Mahmud MÖHBALIYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 91
Nüsxə 4650